AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AQRAR SAHƏYƏ MALİYYƏ DƏSTƏYİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Rahil Cabbar oğlu Muradov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetinin “Maliyyə və mühasibat uçotu” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər:	iqtisad elmləri doktoru, professor **Eldar Rza oğlu İbrahimov**
Rəsmi opponentlər:	iqtisad elmləri doktoru, professor, **Nizami Cəlal oğlu Qafarov**
	iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent **Tariyel Müsəllim oğlu Qurbanov**
	iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent **Camal Cəlil oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent **Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor, Əməkdar kənd təsərrüfatı işçisi **İslam Hacı oğlu İbrahimov**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Aqrar sahənin maliyyə mexanizminin dəyişdirilməsi onun fəaliyyəti ilə bağlı qanunvericilik prinsiplərinin dəyişdirilməsindən, yeni maliyyə üsullarının tətbiqi və əsaslandırılmasından, maliyyə dəstəyinin innovasiya və investisiya yönümlü olması çərçivəsində normativ və informasiya təminatının formalaşdırılmasından ibarətdir. Bu çərçivədə maliyyə mexanizminin modernləşdirilməsi, qlobal meyllər nəzərə alınmaqla maliyyələşmə formalarının və mexanizmlərinin dəyişdirilməsi və ya təkmilləşdirilməsi yolu ilə onun yeni iqtisadi şəraitə uyğunlaşdırılması məqsədi daşıyır.

Beləliklə, aqrar istehsala maliyyə mexanizminin inteqrasiya olunmuş sistemi maliyyə dəstəyinin forma və üsullarının işlənib hazırlanmasını, bu sahədə təkliflərin elmi cəhətdən əsaslandırılması, maliyyə dəstəyinin səmərəli fiskal və kredit dəstəyi mexanizmlərinin yaradılmasını, subyektlərin innovativ fəaliyyəti üçün stimullaşdırıcı mexanizmləri, maliyyə sabitliyini və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətini təmin edən maliyyə resurslarından səmərəli və düzgün istifadə istiqamətlərini, istehsalçılara informasiya dəstəyi sisteminin formalaşdırılmasını, geniş təkrar istehsalın təmin edilməsi və kənd təsərrüfatı sahələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsi kimi mühüm məsələləri əhatə edir.

Göstərilən istiqamətlərdə müsbət nəticələr əldə edilmək məqsədilə son illər dövlət tərəfindən bir sıra tədbirlər görülmüş, müvafiq dövlət proqramları, strategiyalar və strateji yol xəritələri qəbul edilmiş, bu sahədə prioritetlər müəyyənləşdirilmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kənd təsərrüfatının ölkə iqtisadiyyatında xüsusi əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, "*kənd təsərrüfatı bizim üçün prioritet sahədir. Qeyd etdiyimiz kimi, kənd təsərrüfatının inkişafı hesabına biz işsizliyin aradan qaldırılmasına nail olacağıq, yerli istehsalın inkişafını təmin edəcəyik və ölkə iqtisadiyyatı daha da dayanıqlı olacaq. Nəzərə alsaq ki, Azərbaycan əhalisinin təxminən 50 faizi kəndlərdə yaşayır, bu, böyük sosial məsələdir. Buna görə də növbəti illərdə investisiya proqramında bütün bu məsələlər mütləq nəzərə alınacaq. Gələcək*

illərdə kəndlərin inkişafına daha çox diqqət yetirilməlidir"[1]. Bu yanaşma aqrar sahənin inkişafının həm iqtisadi, həm də sosial baxımdan strateji əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində "*kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi*"[2] nəzərdə tutulmaqla, maliyyə resursları ilə təminat səviyyəsi əsasında ehtiyacların nəzərə alınmasının vacibliyi vurğulanmışdır. "*Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında*" fərman "*aqrar sahədə tətbiq edilən dəstək tədbirləri ilə bağlı yeni mexanizmin formalaşdırılması, bu sahədə hesabatlılığın, şəffaflığın və büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi*"[3] kimi mühüm məsələlərin həlli yollarını özündə ehtiva edir.

Qeyd olunan dövlət proqramları və normativ-hüquqi sənədlər çərçivəsində həyata keçirilən dəstək tədbirləri kənd təsərrüfatı istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasında müsbət dəyişikliklərlə nəticələnmişdir. Belə ki, 2019–2024-cü illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi 65,8%, kənd təsərrüfatı müəssisələrinin ümumi mənfəətinin məbləği isə 3,4 dəfə artmışdır. İstehsalın rentabellik səviyyəsi kənd təsərrüfatı müəssisələri üzrə bitkiçilikdə 2019-cu ildə qeydə alınan 35,7%-dən 2024-cü ildə 38,7%-ə, heyvandarlıqda 3,4%-dən 26,7%-ə yüksəlmişdir. Bununla belə, əldə olunan nəticələrin inkişaf etmiş ölkələrin müvafiq göstəriciləri ilə müqayisəsi aşağı səviyyədədir və geniş təkrar istehsalı daha səmərəli şəkildə həyata keçirmək baxımından qənaətbəxş deyil.

Ona görə kənd təsərrüfatı istehsalçılarına dövlətin maliyyə dəstəyi mexanizminin inkişaf etdirilməsi üçün mövcud vəziyyət nəzərə alınmaqla maliyyə resurslarından səmərəli istifadəyə töhfə verəcək

---

[1] "Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı sahəsində sahibkarlığın inkişafına dair müşavirə". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmişdir. 6 may 2011-ci il, Ağcabədi.

[2] "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı

[3] "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 27 iyun 2019-cu il.

elmi cəhətdən əsaslandırılmış konsepsiyaların hazırlanması və bu sahədə təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi zəruridir. Bu baxımdan elmi tədqiqat mövzusunun müasir çağırışlara cavab verən aktual problemin araşdırılmasına həsr edildiyini qeyd etmək olar.

Aqrar sahədə maliyyə resursları ilə təminatı və maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi problemləri ilə məşğul olan respublika iqtisadçıları arasında aşağıdakıları qeyd etmək olar: Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, E.Ə.İbrahimov, V.A.Abbasov, S.M.Məmmədov, M.M.Sadıqov, V.S.Bayramov, M.C.Hüseynov, N.M.İmanov və başqaları.

Xarici tədqiqatçılardan K.H.Rau, F.S.Nitti, Z.Bodi, R.C.Merton, A.A.Nikitin, V.M.Rodionova, V.V.Kovalev, F.S.Mişkin, T.N.Kasyanova, N.N.Oqarkova və başqaları bu istiqamətdə araşdırmalar aparmışlar.

Qeyd etmək lazımdır ki, yerli və xarici alimlərin tədqiqatlarında əsasən iqtisadiyyatın və onun sahələrinin maliyyə resursları ilə təmin olunması və maliyyə dəstəyi mexanizmi məsələləri ümumi şəkildə araşdırılmışdır. Aqrar sahənin timsalında konkret istehsal sahələrinin xüsusiyyətlərinin nəzərə alınması, maliyyə dəstəyi ilə konkret sahədə istehsalın həcmi arasındakı asılılığın və bu sahədə subyektlərin ehtiyacının qiymətləndirilməsi məsələləri məhdud şəkildə tədqiq edilmişdir.

Tədqiqatın obyekti və predmeti. Dissertasiya işinin tədqiqat obyekti aqrar sahə və kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfatçılıq subyektləridir. Tədqiqatın predmetini aqrar sahədə dövlət maliyyə dəstəyi mexanizminin formalaşması, fəaliyyəti və təkmilləşdirilməsi ilə bağlı iqtisadi münasibətlər təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədini aqrar sahədə maliyyə resurslarının formalaşmasının nəzəri-metodoloji əsaslarının, aqrar sahənin əsas iqtisadi göstəricilərini və maliyyə resursları ilə təmin olunma səviyyəsini araşdırmaqla maliyyə resursları ilə təminatın yaxşılaşdırılması və maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətlərini aşkara çıxarmaqdan, bununla bağlı təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Bu istiqamətdə aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- aqrar sahənin maliyyə resurslarının formalaşmasının nəzəri əsaslarının araşdırılması;

- aqrar sahədə maliyyə resurslarının formalaşması mənbələrinin müəyyənləşdirilməsi və təhlili;
- aqrar sahəyə maliyyə dəstəyi mexanizmi, onun formaları və növlərinin araşdırılması, onların tətbiqi xüsusiyyətlərinin şərh olunması;
- aqrar sahənin əsas iqtisadi göstəricilərinin dinamikasının təhlili;
- kənd təsərrüfatı sahələrinin maliyyə nəticələri və ona təsir edən amillərin müəyyən edilməsi;
- aqrar sahəyə maliyyə dəstəyinin səviyyəsinin qiymətləndirilməsi;
- aqrar sahənin güzəştli kreditlərlə daha geniş şəkildə təmin olunması üzrə perspektivlərin müəyyən edilməsi;
- aqrar sahənin maddi-texniki təminatında güzəştlərin tətbiqi imkanlarının müəyyən edilməsi;
- aqrar sahəyə maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması.

Tədqiqat metodları: Dissertasiya işində analiz və sintez, iqtisadi-statistik təhlil, iqtisadi-riyazi metodlar və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar: Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- aqrar sahədə maliyyə resurslarının formalaşmasına dair nəzəri yanaşmaların və kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətlərinin ümumiləşdirilməsi əsasında maliyyələşdirmə mexanizminin inkişaf istiqamətləri müəyyənləşdirilməlidir;
- kənd təsərrüfatı istehsalına dövlətin maliyyə yardımı və dəstəyi ilə bağlı konkret tədbirlərinin tətbiqində dövlət subsidiyalarının növləri, forma və üsulları, kreditləşmə, sığorta mexanizmlərindən istifadənin istehsal sahələrinin inkişaf səviyyəsi ilə uyğunlaşdırılmasının əsaslandırılması günün tələbləri sırasındadır;
- kənd təsərrüfatına maliyyə dəstəyi ilə bağlı qabaqcıl xarici təcrübənin nəzəri perspektivinin genişləndirilməsini təmin edən mexanizmlərdən istifadə imkanlarının müəyyən edilməsi vacibdir;
- aqrar sahənin maliyyə təminatının, maliyyə dəstəyinin real həcminin müəyyən edilməsi ilə bağlı mexanzimlərin

əsaslandırılmasına ehtiyac var;

- kənd təsərrüfatında maliyyə vəziyyətinin və istehsal fəaliyyətinin təhlili əsasında subyektlərin inkişafına təsir edən amillərin müəyyən edilməsi zəruridir;
- yeni çağırışlar şəraitində dövlətin maliyyə dəstəyi sisteminin subsidiyalar, kredit resursları, sığorta sistemi ilə əlaqələndirilməsi vacibdir;
- innovativ inkişafının stimullaşdırılmasına yönəlmiş maliyyə dəstəyi mexanizmindən istifadə üzrə priroritetlərin müəyyən edilməsi təcrubi baxımdan zəruridir.

Tədqiqatın elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

- tədqiqatın köklü mövqelərinə əsaslanaraq maliyyə dəstəyi mexanizminin məzmununu xarakterizə edən nəzəri və metodoloji müddəalar sistemləşdirilmişdir;
- aqrar sahənin resurs və təbii-iqtisadi potensiallına uyğun olaraq maliyyə resurslarının formalaşmasına və istifadəsinə yönəlmiş maliyyə alətlərinin normativ və informasiya-metodiki təminatının elmi əsasları müəyyən edilmişdir;
- dövlətin maliyyə dəstəyinin kənd təsərrüfatının inkişafında rolu nəzərə alınmaqla, aqrar iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması istiqamətləri təcrübi baxımdan əsaslandırılmışdır;
- kənd təsərrüfatı məhsullarına subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsində, eləcə də sığorta münasibətlərinin formalaşmasına istehsal sahələrinin coğrafi-iqtisadi şəraitinin, maliyyə resursları ilə təmin olunma vəziyyətinin və rentabellik səviyyəsinin nəzərə alınmasının vacibliyi əsaslandırılmışdır;
- aqrar sahənin innovasiya yönümlü inkişafında maliyyə yardımlarının real məbləğinin müəyyən edilməsinə sistemli yanaşmanın əhəmiyyəti və maliyyə təminatının yaxşılaşdırılması üzrə priritetlər müəyyən edilmişdir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti: Aparılan tədqiqatda əldə edilən nəticələrin nəzəri əhəmiyyəti kənd təsərrüfatının maliyyə təminatının və dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi ilə bağlı nəzəri metodoloji yanaşmaların, habelə kənd təsərrüfatında

maliyyə münasibətlərinin inkişafına dair elmi mövqelərinin ümumiləşdirilməsində, bu sahədə hazırlanan strategiyaların elmi cəhətdən əsaslandırılmasında əhəmiyyətli rol oynaya bilməsində öz əksini tapır. Tədqiqat işinin əsas elmi müddəaları və nəticələri aqrar sahənin maliyyələşmə mexanizminin inkişaf etdirilməsinə dair araşdırmalar üçün nəzəri və metodoloji əsas rolunu oynaya bilər.

Dissertasiya işinin praktiki əhəmiyyəti aqrar sahəyə maliyyə dəstəyi ilə bağlı elmi müddəa və nəticələrdən istifadə etməklə müvafiq təklif və tövsiyələrin hazırlanması imkanlarında ifadə olunur. İrəli sürülən təkliflərdən aqrar sahədə fəaliyyət göstərən subyektlərin maliyyə təminatının yaxşılaşdırılması siyasətinin formalaşdırılmasında və təkmilləşdirilməsində də istifadə edilə bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin mövzusu üzrə iddiaçının 6 məqalə və 4 tezisi, o cümlədən, 1 məqalə və 2 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, konfrans materiallarında dərc olunmuşdur. Tədqiqatın əsas müddəaları "Aqrar sahəyə maliyyə dəstəyi mexanizminin prioritetləri" (Eskişehir, 2022), "Aqrar sahənin maliyyə potensialının qiymətləndirilməsi" (Mingəçevir, 2022), "Strengthenıng fınancıal mechanısms for ımprovıng ınvestments ın the agrıcultural sector" (Kharkov, 2024), "Aqrar sahənin maliyyə potensialına təsir edən amillər" (Mingəçevir, 2024) adlı tezislərdə beynəlxalq və respublika konfranslarında öz əksini tapmışdır. Həmçinin, tədqiqatın mövzusuna dair iddiaçının "Aqrar sahədə subsidiyalaşma maliyyə dəstəyinin tərkib hissəsi kimi" (Gəncə, 2022), "Kənd təsərrüfatı istehsalının kreditləşdirilməsi xüsusiyyətləri" (Mingəçevir, 2024), "Aqrar sahənin maliyyə resursları ilə təmin olunma səviyyəsinin təhlili" (Gəncə, 2024), "The mechanism of application of concessions in the material and technical support of the agrarian field" (Baku, 2024), "Kənd təsərrüfatı sektoruna investisiyaların təkmilləşdirilməsi üçün maliyyə mexanizmlərinin gücləndirilməsi" (Gəncə, 2025), "Государственная поддержка и стимулирование инвестиционной активности в сфере сельского хозяйства в Азербайджане" (Москва, 2025) adlı məqalələri dövri jurnallarda dərc olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Dövlət Aqrar Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi, giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və 247034 işarədən ibarətdir. Giriş 11627 işarə, I fəsil 80027 işarə, II fəsil 51659 işarə, III fəsil 62903 işarə, nəticə 14505 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 15193 işarə təşkil edir. Tədqiqat işində 13 cədvəl, 4 qrafik, 1 diaqram, istifadə edilən ədəbiyyat siyahısında 118 adda mənbə göstərilmişdir. Dissertasiyanın işarə sayı cədvəllər, qrafiklər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 220721 işarədir.

TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı, problemin öyrənilməsi vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh olunmuşdur.

Dissertasiya işinin **"Aqrar sahənin inkişafının maliyyə mexanizmi, onun formalaşması ilə bağlı elmi-nəzəri müddəalar"** adlanan I fəslində aqrar sahənin maliyyə mexanizminin formalaşmasının nəzəri əsasları, aqrar sahəyə maliyyə dəstəyi mexanizminin formaları, prinsipləri və xüsusiyyətləri, aqrar sahəyə maliyyə dəstəyi ilə bağlı beynəlxalq təcrübə şərh edilir.

Müasir şəraitdə əsaslı dəyişikliklər və rəqəmsal xarakterli dəyişikliklər, iqtisadiyyatın və onun sahələrinin xüsusi inkişaf mexanizmlərinin hazırlanmasını tələb edir. Bu baxımdan xarici mühitdə baş verə biləcək mümkün dəyişiklikləri müəyyən etməyə və proqnozlaşdırmağa imkan verən elementlər, metodlar və vasitələr xüsusi əhəmiyyət kəsb edir. Aqrar sahənin real fəaliyyətində qeyd edilən istiqamətdə baş verən iqtisadi proseslər, onun inkişafı üçün rəqabət şəraitinə uyğun olan müasir maliyyə mexanizminin formlaşadırılmasını, istifadəsini və tətbiqini zərurətə çevirir. Əslində istənilən fəaliyyət sahəsinin səmərəli inkişafı əsasən maliyyə mexanizmindən asılıdır.

Rəqəmsal dəyişiliklərin genişlənməsi ilə əlaqədar olaraq maliyyə resursları da iqtisadi kateqoriya olaraq müəyyən dəyişikliyi şərtləndirmişdir. Yeni rəqəmsal əskinaslar, valyutalar formalaşmış,

maliyyə vasitəçiləri və onların müştəriləri arasında qarşılıqlı əlaqələri təkmilləşərək uzaqdan xidmət formaları, süni intellektdən istifadə ilə tamamlanmışdır. Bu, aydındır ki, əsaslı maliyyələşmənin mahiyyətin maliyyə, pul və kredit kimi mühüm istiqamətlərinə də şamil olunur.

Beləliklə, maliyyənin iqtisadi mahiyyəti ilə təzahür formaları arasında əlaqənin müəyyən edilməsinin nəzəri və praktiki baxımdan böyük əhəmiyyət kəsb etdiyini qeyd etmək olar. Bu əlaqələr maliyyə münasibətləri sferası, maliyyə resurslarının formalaşması və istifadəsi üsulları, maliyyə münasibətlərinin iştirakçılarının tərkibi və s. ilə bağlı məsələləri də nəzərə alır. Ona görə maliyyənin yerinə yetirdiyi funksiyalar və iqtisadiyyatdakı rolu spesifikliyi ilə xarakterizə olunur. Bəzi hallarda maliyyələşdirmə və kreditləşmə prosesində istifadə olunan vəsaitlərin mənbələri eyniləşdirildiyindən maliyyə və kredit resursları arasındakı sərhədlərin itməsi müşahidə olunur.

Aqrar sahədə maliyyə mexanizmi, iqtisadiyyatın digər sahələrində olduğu kimi ayrı-ayrı sahələrin səmərəli fəaliyyətini və davamlı inkişafını təmin edən, maliyyə resurslarının bölgüsünü həyata keçirən proses kimi xarakterizə olunur. Aqrar sahənin maliyyə mexanizmi həmçinin, iqtisadi subyektlərin fəaliyyətini və müxtəlif dövrlərdə idarəetmə sistemindəki prosesləri tənzimləməyə yönəlmiş bir-biri ilə əlaqəli vasitələrin, maliyyə resurslarından istifadə etməklə istehsal, bölgü, mübadilə və istehlaka təsir üsullarının qarşılıqlı əlaqəsini ehtiva edir. Qeyd edilənlərlə yanaşı, maliyyə mexanizmi kənd təsərrüfatı sahələrinin fəaliyyətinin idarə edilməsinin çevikliyini və səmərəliliyini artırmağı nəzərdə tutan iqtisadi mexanizmin ən səmərəli həlqəsi hesab edilir. Bu baxımdan aqrar sahədə müxtəlif iqtisadi proseslərin həyata keçirilməsi üçün tələb olunan maliyyə resurslarının cəlb edilməsi məsələsi xüsusi aktuallığı ilə diqqəti cəlb edir.

Aqrar sahəyə maliyyə dəstəyi mexanizmi ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı müəssisələrin beynəlxalq rəqabətdə öz mövqeyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Maliyyə dəstəyi kənd təsərrüfatı müəssisələrinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasına bilavasitə təsir göstərməklə müəyyən prinsiplər və metodlar sistemində fəaliyyət göstərir. Aqrar sahədə dövlətin maliyyə dəstəyi sistemi elə prinsiplər və metodlar əsasında

formalaşır ki, o, istehsalın səmərəliliyinin uzunmüddətli dövrdə artmasına və dünya standartları səviyyəsində kənd təsərrüfatının iqtisadiyyatın rəqabət qabiliyyətli sektoruna çevrilməsinə kömək edə bilir. Çünki bütövlükdə makroiqtisadi vəziyyətin yaxşılaşdırılması, aqrar iqtisadiyyatda sabitləşmənin təmin edilməsi, kənd təsərrüfatı istehsalının artırılması, istehsalın səmərəliliyinin və məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi dövlətin aqrar siyasətinə yeni yanaşmalar tələb edir.

Dövlət təsərrüfat subyektlərinin fəaliyyətinə birbaşa və dolayı şəkildə təsir göstərməklə iqtisadi fəaliyyət sahələrinin müəyyən qayda və normaların köməyi ilə əlaqələndirilməsini təmin edir, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafındakı qeyri-bərabərliyi aradan qaldırır, hər bir sahənin normal fəaliyyəti və balanslaşdırılmış inkişafı üçün bərabər imkanlar yaradır. Beləliklə, qeyd etmək olar ki, dövlət dəstəyi kənd təsərrüfatı istehsalının və ərzaq bazarının mövcudluğu, səmərəli fəaliyyəti və inkişafı üçün əsas şərtlərdəndir.

Aqrar iqtisadiyyatın inkişafının müasir meylləri müxtəlif sahələrin istehsal strukturunun bütün səviyyələrində yeni yanaşmaların, prinsiplərin, metodların və idarəetmə formalarının tətbiqini tələb edir. Bunu, ilk növbədə, bazar prinsipləri əsasında fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarına geniş təkrar istehsalın davamlılığını təmin edən şəraitin yaradılması ehtiyacı ilə əlaqələndirmək olar. Məlumdur ki, bu məqsədlə müvafiq təşkilati-iqtisadi mexanizmlərdən istifadə daim aktuallığını qoruyur və bu çərçivədə aqrar sahəyə dövlətin maliyyə dəstəyinin daha səmərəli mexanizmlərinin müəyyən edilməsi, onun mövcud iqtisadi inkişaf potensialına uyğunlaşdırılması imkanlarının qiymətləndirilməsini önə çəkir. Hazırda aqrar sahənin inkişafı ilə bağlı beynəlxalq təcrübədə kənd təsərrüfatı və ərzaq bazarlarının tənzimlənməsində dövlətin artan rolu müşahidə edilir. Xüsusilə inkişaf etmiş ölkələrdə aqrar sahəyə özünütənzimləmə qabiliyyəti olmayan sistem kimi baxıldığından, kənd təsərrüfatına dəstək üçün ayrılan vəsaitlər qeyri-sabitlik şəraitində itkilərin əvəzinin ödənilməsi vasitəsi kimi qəbul edilir.

Dissertasiya işinin **“Aqrar sahənin mövcud vəziyyəti: əsas iqtisadi göstəricilərin və maliyyə resursları ilə təminatın təhlili”** adlanan II fəslində aqrar sahənin əsas iqtisadi göstəriciləri, aqrar

istehsal sahələrinin maliyyə nəticələri və ona təsir edən amillər, aqrar sahəyə maliyyə dəstəyinin səviyyəsi təhlil edilir.

Ölkənin sosial-iqtisadi sistemin ən mühüm inkişaf xüsusiyyətləri əsasən aqrar sahənin resurs potensialı ilə, o cümlədən təsərrüfatçılıq fəaliyyətinin həyata keçirilməsi və iqtisadi proseslərdəki dəyişikliklərə uyğunlaşma prosesini təmin etmək üçün istehsal resursları və ondan səmərəli istifadə imkanları ilə xarakterizə olunur. Sosial-iqtisadi sistemin inkişaf potensialı istehsalın təşkili xüsusiyyətlərindən, ayrı-ayrı sahələrin fəaliyyətində istifadə olunan resursların və istehsal olunan məhsulların həcmindən asılıdır. Kənd təsərrüfatı istehsal, emalı və satış kimi bir-birilə əlaqəli elementlərlə təmsil olunduğundan, konkret istehsal sahəsinin inkişaf potensialı onu müəyyən edən amillərlə xarakterizə olunur.

Kənd təsərrüfatı istehsalın inkişaf amillərini, təsərrüfat proseslərinin xarakterini və səmərəliliyini, məhsulların kəmiyyət və keyfiyyət parametrlərini müəyyən edən mürəkkəb sosial-iqtisadi sistem kimi çıxış edir. Kənd təsərrüfatının davamlı inkişaf meyarlarının müəyyənləşdirilməsi bir sıra iqtisadi göstəricilərin qiymətləndirilməsini tələb edir. Bu baxımından əsas iqtisadi göstəricilərin dinamikasının təhlili aqrar sahənin inkişaf səviyyəsini qiymətləndirməyə imkan verir. Araşdırmalar göstərir ki, son illər kənd təsərrüfatı məhsulları istehsalında davamlı olaraq artım baş vermişdir. Belə ki, 2019-cu illə müqayisədə 2024-cü ildə kənd təsərrüfatının ümumi məhsulu 65,8 faiz artaraq 12995,2 milyon manat olmuşdur. Müqayisə edilən dövrdə kənd təsərrüfatı müəssisələrinin, bitkiçilik və heyvandarlıq üzrə ümumi məhsulu 108,7 faiz artaraq 1488,7 milyon manat, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında kənd təsərrüfatının ümumi məhsulu isə 61,5 faiz artaraq 11506,5 milyon manat təşkil etmişdir. Kənd təsərrüfatı müəssisələrində bitkiçilik sahəsinin ümumi məhsulu 2,6 dəfə, heyvandarlığın ümumi məhsulu 70,8 faiz, fərdi sahibkarlıq təsərrüfatı, ailə kəndli və ev təsərrüfatlarında bitkiçiliyin ümumi məhsulu 55,8 faiz, heyvandarlığın ümumi məhsulu isə 66,9 faiz artmışdır. 2024-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı müəssisələrinin ümumi məhsulunun 55,0 faizi bitkiçiliyin 45,0 faizi isə heyvandarlığın payına düşmüşdür. Fərdi sahibkarlıq təsərrüfatı, ailə kəndli və ev

təsərrüfatlarında kənd təsərrüfatının ümumi məhsulunun 46,4 faizi bitkiçilik, 53,6 faizi isə heyvandarlıq sahəsində formalaşmışdı. Həmçinin 2024-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun 88,5 faizə yaxını fərdi sahibkarlıq təsərrüfatı, ailə kəndli və ev təsərrüfatlarının payına düşmüşdür (cədvəl 1).

Cədvəl 1.

Azərbaycan Respublikasında kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manatla

İllər	Cəmi məhsul	ondan bitkiçilik və heyvandarlıq üzrə	o cümlədən		Cəmi məhsul	o cümlədən	
			Bitkiçilik	Heyvandarlıq		bitkiçilik məhsulları	Heyvandarlıq məhsulları
	Kənd təsərrüfatı müəssisələri				Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları		
2019	7836,7	713,2	321,0	392,2	7123,5	3430,2	3693,3
2020	8428,9	834,5	438,3	396,2	7594,4	3590,1	4004,3
2021	9163,4	885,9	467,3	418,6	8277,5	4043,7	4233,8
2022	10984,2	1094	509,2	584,8	9890,2	5028,8	4861,4
2023	12210,6	1351,1	693,7	657,4	10859,5	5240,2	5619,3
2024	12995,2	1488,7	818,7	670,0	11506,5	5343,6	6162,9
2019-cu illə müqayisədə 2024-cü ilə nisbətən, %-lə	165,8	208,7	255,0	170,8	161,5	155,8	166,9

Mənbə: *Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.* *https://www.stat.gov.az/source/agriculture/az/1.9.xls*

Müasir şəraitdə kənd təsərrüfatı istehsalının texniki-texnoloji cəhətdən modernləşdirilməsi əsasında onun səmərəliliyinin yüksəldilməsi aqrar iqtisadiyyatın ən mühüm məsələlərdən hesab olunur. Kənd təsərrüfatı müəssisələrinin maliyyə resursları ilə təminatının hədəf göstəricilərinə nail olunmaqla, əsas kapitala investisiyalardan, geniş təkrar istehsalı həyata keçirmək üçün maliyyə resurslarının mövcudluğundan bilavasitə asılıdır. Məlumdur ki, kənd təsərrüfatı müəssisələrinin əsas hədəfi istehsalda minimum xərclə


daha yüksək məhsul və mənfəət əldə etməkdir. Qeyd etmək lazımdır ki, müəssisələrin istehsal potensialını ətraflı təhlil etmədən,eləcə də məhsul istehsalının və satışının nəticələrini müəyyən etmədən maya dəyərini azaltmaq və davamlı mənfəət əldə etmək mümkün deyil.

Mənfəət müəssisələrin fəaliyyətinin ən vacib göstəricilərindən biri olub gəlirlilik səviyyəsini və istehsal-təsərrüfat fəaliyyətinin maliyyə nəticələrini müəyyən edir. Mənfəəti artırmaq üçün ehtiyatların qiymətləndirilməsi müəssisələrdə maliyyə planlaşdırmasının vacib tərkib hissəsidir. Məlum olduğu kimi, iqtisadi ehtiyatlar mövcud istehsal potensialından, elmi-texniki tərəqqinin nailiyyətlərindən və qabaqcıl təcrübədən maksimum istifadə etməklə kənd təsərrüfatı müəssisələrinin istehsal və maliyyə fəaliyyətini yaxşılaşdırmaq imkanları ilə xarakterizə olunur. Mənfəət artırılması üçün ehtiyatların müəyyən edilməsi aşağıdakı istiqamətlərdə aparılır: istehsal sahələrinin genişləndirilməsi ilə yanaşı intensivləşmənin tətbiqi; istehsal sahələrinin strukturunun təkmilləşdirilməsi; itkilərin qarşısının alınması; məhsuldarlığın artırılması və s.

Kənd təsərrüfatında mənfəətin dinamikasının təhlili göstərir ki, 2019-cu illə müqayisədə 2024-cü ildə həm kənd təsərrüfatı müəssisələrində, həm də fərdi sahibkar təsərrüfatlarında bu göstərici əhəmiyyətli dərəcədə artmışdır – müvafiq olaraq 3,4 dəfə və 35,6 faiz. Təhlildən aydın olur ki, əvvəlki illə müqayisədə 2019-cu ildə kənd təsərrüfatı müəssisələri üzrə mənfəət 4,4 faiz azalmış, 2020-ci ildə 12,2 faiz, 2021-ci ildə 64,6 faiz, 2022-ci ildə isə 81,1 faiz artmışdır. 2023-cü ildə əvvəlki illə müqayisədə mənfəət 17,0 faiz azalmış, 2024-cü ildə isə 21,6 faiz artmışdır. Fərdi sahibkar təsərrüfatlarında mənfəətin dinamikasına nəzər saldıqda məlum olur ki, 2019-cu ildə əvvəlki illə müqayisədə mənfəət 19,0 faiz, 2020-ci ildə 23,4 faiz artmış, 2021-ci ildə 1,2 faiz azalmış, 2022-ci ildə 2,4 faiz artmış, 2023-cü ildə 2,3 faiz azalmış, 2024-cü ildə isə 11,2 faiz artmışdır (qrafik 1).

Kənd təsərrüfatı müəssisələri tərəfindən maliyyə dayanıqlığına nail olunması konkret məqsəd və prinsiplərə əsaslanan, dövlət dəstəyinin istiqamətləri sistemini və mexanizmlərini özündə ehtiva edən daha səmərəli strukturlaşdırılmış aqrar siyasətdən birbaşa asılıdır. Bu baxımdan aqrar sahəyə dövlətin maliyyə dəstəyi siyasəti mühüm əhəmiyyətə malikdir. Dövlətin maliyyə dəstəyinin məqsədi,

subyektlərin səmərəli fəaliyyət, dinamik inkişaf, eləcə də rəqabət qabiliyyətinin yüksək səviyyədə saxlanması məsələləri ilə bağlıdır.



Qrafik 1. Kənd təsərrüfatında mənfəətin dinamikası, əvvəlki illə müqayisədə %-lə

Mənbə: *Qrafik müəllif tərəfindən statistika məlumatlrı əsasında hazırlanmışdır.*
https://www.stat.gov.az/source/agriculture/az/1.52.xls
https://www.stat.gov.az/source/agriculture/

Kənd təsərrüfatının subsidiyalaşdırılması, onun nəticələrinin iqtisadi səmərəliliyinin təmin olunmsını tələb edir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı subsidiyalarının yaratdığı təsirlərin nəzərə alınmasının birtərəfliliyi müəyyən çatışmazlıqlarla müşayət olunur. Ona görə kənd təsərrüfatında subsidiyaların nəticələri, ilk növbədə büdcə səmərəliliyinin müəyyən edilməsinə və ya bu sahənin ümumi istehsal göstəricilərinə yönəldilir. Bu baxımdan aqrar sahədə iqtisadi inkişaf göstəricilərinin artımında subsidiyaların rolunun qiymətləndirilməsi vacib məsələlərdən hesab olunur. Subsidiyalardan istifadə etməklə aqrar istehsalın dəstəklənməsi əsasən kənd təsərrüfatı müəssisəərinin fəaliyyətləri üçün kəmiyyət meyarlarına əsaslanır. Subsidiyalar hesabına istehsalın dəstəklənməsi, eyni zamanda kənd təsərrüfatının müxtəlif sahələrinin innovativ inkişafına və onun rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır. Bu çərçivədə subsidiyalara əsaslanan mövcud dəstək sistemi, kənd təsərrüfatı istehsalının stimullaşdırılması üzrə dövlət siyasətinin təkmilləşdirilməsini, eləcə də kənd təsərrüfatının

subsidiyalaşdırılmasına sistemli və elmi cəhətdən əsaslandırılmış yanaşmanı tələb edir.

Statistik məlumatlar göstərir ki, son illər aqrar sahəyə yönəldilən subsidiya və güzəştlərin həcmində ümumilikdə artım meyli müşahidə olunur. Subsidiyalar şəklində dövlət dəstəyinin dinamikasının təhlili göstərir ki, 2019–2024-cü illər ərzində ayrı-ayrı subsidiya növləri üzrə artım və azalmalar baş versə də, ümumilikdə ayrılan subsidiyaların məbləği əhəmiyyətli dərəcədə artmışdır (cədvəl 2)

Cədvəl 2.

Azərbaycan Respublikasında aqrar sahəyə yönəldilən subsidiyaların dinamikası

Subsidiya növləri	2019	2020	2021	2022	2023	2024
Əkin və çoxillik əkmələr *(yanacaq və motor yağı)*	62600,7	233235,1	258557,3	246558,4	262491,9	273998,4
Pambıq istehsalı *(kütləvi əkin dəstəyi)*	22527,7	32762,1	28549,8	54766,1	53108,4	59143,2
Tütün istehsalı	185,5	232,76	226,7	808,9	1951,3	2888,5
Şəkər çuğunduru istehsalı	873,8	751,13	697,8	2321,8	3533	4342,9
1-ci və 2-ci reproduksiyalı toxum və ting istehsalı	7425,1	4766,1	6658,4	7433,1	6002,3	5603,96
Süni mayalanma yolu ilə alınmış buzovlar	8254,5	8799,8	9067,4	9690,4	10300	10300
Barama istehsalı	3156,5	2172,4	2405,1	1989	2050,57	1376,72
Arı ailələrinin saxlanılması	4265,3	5017,5	5313,3	5820,9	0	0
Ərzaqlıq buğda istehsalı	—	0	0	0	12536,5	11096,2

Mənbə: *Cədvəl sorğu əsasında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Kredit və İnkişaf Agentliyinin məlumatları əsasında tərtib edilmişdir.*[4]

[4] Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Kredit və İnkişaf Agentliyinin 3 -22-21 2 -N -2998 42 -67 5 l 2024 saylı məktubu

Aqrar sahəyə maliyyə dəstəyinin əsas istiqamətlərindən biri də lizinq mexanizmi hesab olunur. Lizinq xidməti kənd təsərrüfatı istehsalçılarını zəruri istehsal vasitələri, ilk növbədə avadanlıqlarla təchiz etməklə məhsul istehsalı üçün mütərəqqi texnologiyalardan istifadəyə əlverişli şərait yaradır.

Araşdırmalar göstərir ki, aqrar sahənin maddi-texniki bazasının möhkəmləndirilməsində "Aqroservis" ASC tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinqə verilməsi və lizinq yolu ilə satılması əhəmiyyətli rol oynamaqdadır. Lakin statistik məlumatların təhlili göstərir ki, "Aqroservis" ASC tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinqə verilməsi və lizinq yolu ilə satılmasında çox ciddi azalma müşahidə edilmişdir. 2019-cu illə müqayisədə 2024-cü ildə traktorların sayı 92,7 faiz, kotanların sayı 55,8 faiz, kultivatorların sayı 95,2 faiz, səpici aqreqatların sayı 98,9 faiz, taxılyığan kombaynların sayı 96,4 faiz, gübrəsəpən maşınların sayı 92,2 faiz, ot dırmıqlarının sayı 79,3 faiz, kombayna qoşulan biçən aqreqatların sayı 60 faiz, digər kənd təsərrüfatı maşın və avadanlıqlarının sayı 93,5 faiz azalmışdır. Müqayisə edilən dövrdə otbiçənlərin sayı 70,3 faiz, bağarası frezlərin sayı 76,9 faiz azalmışdır. 2019-cu ildə "Aqroservis" ASC tərəfindən satılmış və verilmiş maşınların dəyəri 130,6 milyon manat təşkil edirdisə, 2024-cü ildə bu rəqəm 95,7 faiz azalaraq 5,6 milyon manat olmuşdur (cədvəl 3).

Beynəlxalq təcrübə göstərir ki, hazırda maliyyə lizinqi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələr üçün maliyyələşdirmənin ən səmərəli üsullarındandır. Bu onunla əlaqədardır ki, əksər hallarda kənd təsərrüfatı müəssisələrinin istehsalı üçün avadanlıqlara investisiya qoymaq üçün lazımi vəsaitləri çatışmır. Nəticədə kənd təsərrüfatı istehsalının inkişafında əsaslı rol oynayan maddi-texniki bazanın əhəmiyyətli hissəsini itirilir. Ümumiyyətlə, lizinq təsərrüfat subyektlərinin əmlakının geri ödəmə və ödəniş şərtləri ilə müvəqqəti istifadəyə verilməsini nəzərdə tutur. Araşdırmalar göstərir ki, məhsul istehsalı üçün nəzərdə tutulan subsidiyalar və resurs subsidiyaları nisbətən aşağı iqtisadi səmərəliliyə malikdir. Ona görə kənd təsərrüfatında uzunmüddətli artım və innovasiya mühitinin

gücləndirilməsi üçün əmək məhsuldarlığını yüksəldən texnologiyalar yaradan sahələrə xüsusi diqqət yetirilməsi vacibdir.

Cədvəl 3.

"Aqroservis" ASC tərəfindən kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinqə verilməsi və lizinq yolu ilə satılması, ilin axırına

Texnika və avadanlıq	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2024**	**2019-cu illə müqayisədə 2024-cü ildə, %-lə**
Traktorlar	662	266	137	86	114	48	7,3
Kotanlar	197	134	67	71	191	87	44,2
Kultivatorlar	188	54	39	3	28	9	4,8
Səpici aqreqatlar	180	147	67	90	103	2	1,1
Otbiçənlər	64	10	5	20	269	19	29,7
Otpresləyənlər	21	34	1	29	37	—	—
Pambıqyığanlar	45	12	1	15	21	—	—
Taxılyığan kombaynlar	225	54	106	49	69	8	3,6
Gübrəsəpən maşınlar	64	6	2	13	62	5	7,8
Ot dırmıqları	29	9	1	16	25	6	20,7
Bağarası frezlər	13	71	2	4	25	3	23,1
Traktor yedəkləri (qoşquları)	180	115	30	4	24	—	—
Kombayna qoşulan biçici aqreqatlar	20	14	12	20	16	8	40,0
Digər kənd təsərrüfatı maşın və avadanlıqları	260	479	138	129	120	17	6,5
Satılmış və verilmiş maşınların dəyəri, milyon manat	130,6	52,3	37,6	31,8	47,7	5,6	4,3

Mənbə: *Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.* *https://www.stat.gov.az/source/agriculture/az/1.16.xls*


Dissertasiya işinin **“Aqrar sahənin maliyyə resursları ilə təminatı və maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi”** adlanan III fəslində aqrar sahənin güzəştli kreditlərlə təmin olunmasının genişləndirilməsi, aqrar sahənin maddi-texniki təminatında güzəştlərin tətbiqi perspektivləri, aqrar sahəyə maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri öz əksini tapır.

Aqrar sahədə inteqrasiya proseslərinin dərinləşməsi kontekstində yerli və beynəlxalq səviyyədə kənd təsərrüfatı məhsullarının istehsalı və təşviqi, elmi əməkdaşlığın inkişaf etdirilməsi, iqtisadi, elmi, istehsalat əlaqələrinin formalaşdırılması sahəsində fəaliyyətlər, eləcə də aqrar sahənin güzəştli şərtlərlə maliyyələşdirilməsi dövlətin iqtisadi siyasətinin prioritetlərini təşkil edir. Hazırda bir sıra dünya ölkələrində müxtəlif güzəştlər tətbiq edilməklə kənd təsərrüfatı istehsalı üçün əlverişli şəraitin yaradılması təcrübəsindən geniş şəkildə istifadə edilir. Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyələşdirilməsində dövlətin iştirakı müxtəlif istiqamətlərlə, o cümlədən dövlət subsidiyaları və bank kreditlərinə faiz dərəcəsi ödənişləri şəklində həyata keçirilir. Güzəştli bank kreditləri vasitəsilə aqrar sahəyə maliyyə xidmətləri kommersiya, kooperativ və ixtisaslaşmış banklar, sığorta şirkətləri və digər kredit təşkilatları vasitəsilə göstərilir.

Kənd təsərrüfatında kreditləşmənin müxtəlif formalarından, eləcə də beynəlxalq maliyyə institutları vasitəsilə kreditləşmədən geniş şəkildə istifadə olunur. Kənd təsərrüfatı məhsulları istehsalçılarının kreditləşdirilməsi bankların, lizinq şirkətlərinin vəsaitləri hesabına, habelə beynəlxalq inteqrasiya çərçivəsində reallaşdırılır. Büdcə vəsaitləri hesabına kreditlər üzrə faiz dərəcələrinin əvəzinin ödənilməsi əsasında güzəştli kreditlərin verilməsi, aqrar sahənin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan beynəlxalq iqtisadi inteqrasiya şəraitində büdcə vəsaitlərindən istifadə etməklə kənd təsərrüfatı istehsalının kreditləşdirilməsi mexanizminin səmərəliliyinin artırılması, dünya təcrübəsi nəzərə alınmaqla əsaslandırılır.

Ümumiyyətlə, kreditləşmə kənd təsərrüfatının inkişafında mühüm rol oynamaqla, təkrar istehsalın genişləndirilməsi üçün kifayət qədər gəlir əldə etməyi nəzərdə tutur. Həmçinin kreditlər kənd təsərrüfatı müəssisələri üçün istehsalın və dövriyyə vəsaitlərinin yenilənməsinin əsas mənbəyi kimi çıxış edir. Kənd təsərrüfatı məhsullarının

istehsalına verilmiş güzəştli kreditlərin dinamikasına nəzər saldıqda məlum olur ki, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2019-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə 1450 layihəyə 96,3 milyon manat, 2020-ci ildə 824 layihəyə 56,5 milyon manat, 2021-ci ildə 1774 layihəyə 67,6 milyon manat, 2022-ci ildə 87,1 milyon manat, 2023-cü ildə 90,0 milyon manat, 2024-cü ildə isə 132,2 milyon manat güzəştli kredit verilmişdir. Fond tərəfindən verilən güzəştli kreditlərin 2019-cu ildə 55,1 faizi, 2024-cü ildə isə 53,3 faizi kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilmişdir. 2019-cu illə müqayisədə 2024-cü ildə fond tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına verilən güzəştli kreditlərin həcmi 37,3 faiz artmışdır (qrafik 3).



Qrafik 3. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına verilmiş güzəştli kreditlərin həcmi və xüsusi çəkisi, 2019–2024-cü illər, milyon manatla

Mənbə: *Qrafik Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş məlumatlar əsasında hazırlanıb.* https://economy.gov.az/az/post/2500/sahibkarlar-dovletin-guzestli-maliyye-mexanizmleri-ile-bizneslerini-inkisaf-etdirirler?

Hazırda aqrar sahəyə dövlət dəstəyi tədbirləri çərçivəsində kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli kreditlərin verilməsi Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına həyata keçirilir.

Kənd təsərrüfatına dəstək üçün kreditlər illik 7% və ya 12%-lə verilir. Bundan başqa, kənd təsərrüfatı avadanlıqları və texnikası, eləcə də damazlıq heyvanların alışı üçün nəzərdə tutulan güzəştli şərtlərlə kreditlər də tətbiq edilir.

Güzəştli kreditləşmənin məqsədləri, şərtləri və maksimum kredit məbləğləri kənd təsərrüfatının demək olar ki, bütün sahələrinin və təsərrüfat subyektlərinin maraqlarının təmin edilməsinə yönəldilir. Beləliklə, güzəştli kreditləşmə mexanizminin əlçatanlığı, kənd təsərrüfatı istehsalçılarının kredit resurslarından və rəqabətqabiliyyətli məhsul istehsalında yeni texnika və texnologiyalardan istifadə etməsinə əlverişli imkan yaradır. Güzəştli kreditlərdən istifadə təkrar istehsal proseslərinin maliyyələşdirilməsində də əsaslı rol oynayır.

Aqrar sahənin maddi-texniki təminatın yaxşılaşdırılması ilə bağlı dövlət dəstəyinin həyata keçirilməsi aşağıdakı amillərin təsiri ilə əlaqələndirilir:

- logistika sisteminə tələbat - kənd təsərrüfatı müəssisələrinin innovativ inkişafının nəzərə alınması ilə maddi-texniki bazanın təkmilləşdirilməsi, onlardan istifadənin mütərəqqi üsullarının tətbiqi, istehsal olunan məhsulların saxlanmasını düşgün şəkildə təşkil etməklə keyfiyyətin qorunması və s.;

- bioloji amillər - seleksiya, bitki və heyvanların genetik potensialı, biomühəndisliklə bağlı fəaliyyətlər və s.;

- sosial-iqtisadi amillər – logistika və bioloji amillərdən istifadə etməklə müəssisələrin fəaliyyətində səmərəliliyin yüksəldilməsi potensialı.

Dövlət dəstəyindən istifadə etməklə kənd təsərrüfatının maddi-texniki təchizatının təkmilləşdirilməsi, aqrar sahənin modernləşdirilməsi əsasında rəqabət qabiliyyətinin artırılması proseslərinin sürətləndirilməsində ən vacib vasitələrdəndir. Bu baxımdan kənd təsərrüfatı məhsulları istehsalçılarının texniki cəhətdən yenidən təchiz edilməsi məqsədilə zəruri şəraitin təmin edilməsi problemlərinin həllinə kompleks yanaşma öz aktuallığını qorumaqdadır.

Aqrar sahənin inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi məhdud maliyyə resursları şəraitində kənd təsərrüfatının sahə strukturunun bazarın tələbinə uyğunluşdırılması və

tələb olunan rəqabət qabiliyyətlilik səviyyəsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan kənd təsərrüfatı müəssisələrinin inkişafına dövlətin maliyyə dəstəyinin səmərəliliyinin artırılması tədbirlərinin ön plana çıxır. Aqrar sahəyə dövlətin maliyyə dəstəyi mexanizmi kənd təsərrüfatı müəssisələrinin innovasiya və investisiya fəaliyyətlərinin dövlət tərəfindən maliyyələşdirilməsi üçün alətlər toplusunu ehtiva edir. Kənd təsərrüfatı müəssisələrinin inkişafına investisiyaların səmərəli şəkildə cəlb edilməsi perspektivli innovativ layihələrə dövlət maliyyə dəstəyinin mahiyyətini və istiqamətlərini daha yaxşı anlamağa imkan verir.

Dövlət dəstəyi mexanizmi, qeyd edilənlərlə yanaşı onun müxtəlif formalarının fəaliyyət göstərməsi üçün əlverişli təşkilati-iqtisadi şəraitin yaradılmasını tələb edir. Bununla yanaşı, kənd təsərrüfatı istehsalının səmərəliliyinin artırılmasına yönəlmiş büdcə vəsaitlərinin və digər maliyyə vəsaitlərinin səmərəli şəkildə bölüşdürülməsi ən mühüm məsələlərdən hesab edilir.

NƏTİCƏ

Qeyd edilənlərə əsaslanaraq aqrar sahəyə maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsinin məqsədəuyğunluğunu qeyd etmək olar:

1. Kənd təsərrüfatı istehsalının xüsusiyyətləri nəzərə alınmaqla maliyyə dəstəyi mexanizminin inkişaf etdirilməsində aşağıdakı əsas elementlərin sistemləşdirilməsi zəruridir: kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatları üçün maliyyə vəsaitlərinə ehtiyacın yarandığı dövrlərdə, çevik maliyyə güzəştləri sisteminin tətbiqi ilə həmin resurslara tələbatın vaxtında ödənilməsinin təmin edilməsi; kənd təsərrüfatı subyektlərinin güzəştli əsaslarla mövsümi və geniş miqyasda kreditləşdirilmə sistemindən istifadə etməsinə zəruri şəraitin yaradılması; maliyyə sistemi vasitəsilə kənd təsərrüfatı subyektlərinə investisiya və lizinq üzrə güzəştlər sisteminin tətbiqi; kənd təsərrüfatının maliyyə mexanizminin qeyd edilən bütün komponentlərinin reallaşdırılması üçün zəruri iqtisadi mühitin yaradılması və hüquqi dəstəyin həyata keçirilməsi.

2. Bir sıra inkişaf etmiş ölkələrdə aqrar sahəyə dövlətin maliyyə dəstəyi siyasətinin prioritet istiqamətləri istehsalçılara hərtərəfli yardımlar göstərməklə kənd təsərrüfatı istehsalının artmasına və kənd yerlərində səmərəli sosial-istehsal infrastrukturunun formalaşmasına əlverişli şərait yaradılmasına nail olmaqdır. Bunlar büdcədən birbaşa ödənişlər, subsidiyalar, istehsal xərclərinin ödənilməsi, qiymətlərin dəstəklənməsi, istehsal infrastrukturunun yaxşılaşdırılması üçün subsidiyaların verilməsi, regional inkişaf proqramlarının hazırlanması, aqrar sahədə istehsal-iqtisadi münasibətlərin müasirləşdirilməsinə maksimum töhfə verən strategiyanın formalaşdırılması kimi mühüm istiqamətləri əhatə edir.

3. Kənd təsərrüfatında yeni maliyyə dəstəyi mexanizminin yaradılmasının əsas prinsipləri kimi aşağıdakıları ümumiləşdirmək olar: resursları yalnız məqsədli proqramlar üçün ayrılmasından ibarət olan maliyyə yardımının proqram-məqsədli xarakteri; maliyyələşdirməyə əvəzin ödənilməsinin yanaşılması; kənd təsərrüfatı müəssisisələrinə çəkilmiş xərclərin müəyyən hissəsinin ödənilməsi; qəbul edilmiş proqramlar çərçivəsində nəzərdə tutulan şərtlərə ciddi şəkildə əməl edilməsi və s. Qeyd edilənlər nəzərə alınmaqla kənd təsərrüfatı subyektlərinin maliyyə resursları ilə təminatını, maliyyə ehtiyatlarının bölüşdürülməsi və istifadəsini qiymətləndirmək zəruri məsələlərdəndir. Məhz bu yolla əldə edilmiş məlumatlar əsasında subyektlərin ödəmə qabiliyyətinin bərpasına, investisiyaların istehsalata cəlb edilməsinə yönəlmiş qərarlar qəbul etmək mümkündür.

4. Büdcədən maliyyələşmənin azaldılması və güzəştli şərtlərlə verilən kreditlərin dəyərinin artırılması kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin daha dəqiq qiymətləndirilməsini tələb edir. Kredit əməkdaşlığının canlandırılması isə bilavasitə dövlət dəstəyi ilə əlaqəlidir. Kredit sistemi ilə bağlı dövlətin həyata keçirdiyi tədbirlər bu sahədə daha səmərəli fəaliyyətə zəmin yaradır. Belə yanaşma, vəsaitlərin səmərəli istifadəsinə və onların ödənilməsi səviyyəsini artırmağa imkan verir. Kredit əməkdaşlığına dövlət tərəfindən maliyyə dəstəyi aşağıdakı istiqamətləri nəzərdə tutur: kreditlərin perspektivli proqramların həyata keçirilməsi üçün təşviqi; kənd təsərrüfatı texnikasının uzunmüddətli lizinq əsasında kənd

təsərrüfatı məhsulları istehsalçılarına verilməsi və ya texnikaların lizinq əsasında alınması və s.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, kənd təsərrüfatında istehsal sahələrinin səmərəli kredit sisteminə ehtiyacı vardır. Xüsusilə, iş dövrü ilə istehsal dövrü arasındakı obyektiv fərqi nəzərə almaqla kredit sistemi, məhsulun satışına qədər bütün istehsal dövründə subyektləri dövriyyə vəsaitləri ilə fasiləsiz təmin etməyə imkan verməlidir.

5. Aqrar sahədə fəaliyyət göstərən subyektlərin fəaliyyətində maliyyə sabitliyinə nail olunması üçün istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi zəruri məsələlərdəndir. Bu məqsədlə tələb olunan investisiya fəaliyyətinin aktivləşdirilməsinə ehtiyac var. Bu, kreditlərin dəyəri ilə bağlı vəziyyəti normallaşdırmağa, dövriyyədə olan vəsaitlərin istifadəsinin səmərəliliyinə də zəmin yarada bilər. Hazırda istehsal subyektlərinin investisiya kreditləşməsi sahəsində bankların fəaliyyətinin gücləndirilməsi üçün müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi zəruriliyini göstərməkdədir. Aqrar iqtisadiyyatda investisiyaların stimullaşdırılması və həyata keçirilməsi mexanizmini qanunvericiliklə müəyyən etmək məqsədilə aşağıdakı məsələlərə diqqət yetirilməsi vacibdir: investisiya qoyuluşlarının tənzimlənməsinin əhatə dairəsinin müəyyən edilməsi; investorların xüsusilə mülkiyyət hüququnun təmin edilməsi qaydasının hüquqi təminatı; investisiya fəaliyyətinin dövlət tənzimlənməsi ilə bağlı tədbirlərin müəyyən edilməsi; investisiya zəmanətlərinin və sığortasının verilməsi şərtlərinin müəyyən edilməsi və s.

6. Kənd təsərrüfatında subyektlərin təşkilati-iqtisadi cəhətdən fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş maliyyə dəstəyi tədbirləri sisteminin işlənib hazırlanması məqsədilə maliyyə-təsərrüfat vəziyyətinin hərtərəfli qiymətləndirilməsi ən vacib məsələlərdən biri kimi özünü göstərir. Subyektlərin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks qiymətləndirilməsinin elementləri sırasında aşağıdakı məsələlər xüsusi əhəmiyyətli hesab edilə bilər: qiymətləndirilmə müddəti üçün ilkin məlumatların toplanması və analitik emalı; qiymətləndirmə üçün istifadə olunan göstəricilər sisteminin əsaslandırılması; yekun qiymətləndirmə göstəricisinin müəyyən

edilməsi və hesablanması; müəssisələrin yekun göstəricilərinin qiymətləndirilməsi əsasında reytinqlərinin müəyyən edilməsi. Kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətində qeyd edilən tədbirlərin tətbiqi bütövlükdə aqrar sahənin sosial-iqtisadi inkişafını, eləcə də kənd yerlərinin davamlı inkişafı kontekstdə innovativ fəaliyyət modelinə keçidi təmin edə bilər.

7. Büdcədən subsidiyaların bölüşdürülməsində onların həcminin istehsal olunan məhsulların həcmi, rentabellik səviyyəsi və təbii-iqtisadi zonaların xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməsi məqsədəuyğundur. Subsidiyaların bu şəkildə verilməsi kənd təsərrüfatı məhsulları istehsalçılarının müxtəlif təbii-iqlim iqtisadi şəraiti üçün maliyyə vəziyyətinin nəzərə alınmasına, qiymət tarazlığının təmin edilməsinə və istehsalın həcminin artırılması ilə yanaşı onun iqtisadi səmərəliliyinin yüksəldilməsinə təkan verə bilər. Kənd təsərrüfatı subyektlərinə subsidiyaların verilməsində texniki və texnoloji avadanlıqlarla təminata da diqqət yetirilməsi vacibdir. Belə ki, kənd təsərrüfatı texnikisa və texnoloji avadanlıqlarının güzəştli şərtlərlə satışı ilə yanaşı istehsal prosesində onların icarəsi, kənd təsərrüfatı işləri üçün müxtəlif xidmətlər göstərən müəssisələrin xidmətindən istifadə də istehsalçıların maraq dairəsindədir. Lakin icarə və xidmət işlərinin qiymətlərinin əksər hallarda istehsalçıların maraqları ilə uzlaşmaması bu sahədə problemlər yaradır və özünü bilavasitə subyektlərin mənfəətində biruzə verir.

8. Aqrar sahəyə maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri aşağıdakı tədbirlərin tətbiq edilməsinin zəruriliyi ilə əsaslandırıla bilər: güzəştli uzunmüddətli və qısamüddətli kreditləşmə sisteminin tətbiqi ilə yanaşı onun bütün iqtisadi subyektlər üçün əlçatanlığının təmin edilməsi; beynəlxalq təcrübəyə əsaslanaraq kənd təsərrüfatı istehsalçılarını uzunmüddətli dövr üçün güzəştli şərtlərlə investisiya resursları ilə təmin etmək məqsədi ilə maliyyə dəstəyinin ərazi fondlarının və kredit bazasının formalaşdırılması; kənd təsərrüfatında güzəştli əsaslarla mövsümi və geniş miqyasda kreditləşdirilmə sisteminin tətbiqi; daha az gəlirli kənd təsərrüfatı subyektləri üçün dövlət qurumları vasitəsilə xüsusi güzəştlər sisteminin həyata keçirilməsi; maliyyə lizinqinin təşkil edilməsi; kooperativ prinsipləri əsasında fəaliyyət göstərən bank sisteminin

yaradılması və inkişaf etdirilməsi və s.

9. Qiymət itkisi ilə bağlı dövlətin əvvəlcədən istehsalçıların maraqları nəzərə alınmaqla alış qiymətlərinin müəyyən edilməsi bu sahədə səmərəli nəticələr əldə etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə şərtlərlə kənd təsərrüfatı istehsalçıları bir tərəfdən məhsullarını əvvəlcədən müəyyən edilmiş qiymətlərlə satmaq üçün kifayət qədər təminat əldə edir, digər tərəfədən qiymətlərin aşağı düşməsi ilə bağlı yarana biləcək maliyyə itkilərinin qarşısı alınmış olur. Bu prosesdə girov mexanizmi kənd təsərrüfatı məhsulları istehsalçılarını müdafiə etməklə aşağıdakı məsələlərin həllini nəzərdə tutur: istehsalçıların istehsal vasitələrinin maya dəyərinin əsassız artımından qorunması üçün səmərəli mexanizmin tətbiqi; kənd təsərrüfatı məhsulları bazarında girov olaraq qəbul edilən məhsulların həcminin artırılması ilə girov əməliyyatlarının həyata keçirilməsi; məhsulların böyük qisminin girov əməliyyatlarına cəlb edilməsi yolu ilə maliyyə sabitliyinin təmin edilməsi mexanizminin əhatə dairəsini genişləndirilməsi; kənd təsərrüfatı istehsalçılarından əsassız olaraq aşağı qiymətlərlə məhsulların alınmasının azaldılması; kənd təsərrüfatı istehsalçılarına büdcədən subsidiyalar tətbiqinin genişləndirilməsi.

10. Zərərlə fəaliyyət göstərən və az gəlirli kənd təsərrüfatı subyektlərinə dövlətin maliyyə yardımının tətbiqi məqsədəuyğunluğunu aşağıdakı istiqamətlərlə təsdiq edə bilər. Belə ki, həyata keçirilən maliyyə yardımları hesabına kənd təsərrüfatı subyektləri öhdəliyində olan borcları qaytara, mövcud resurs potensialını gücləndirə və ondan daha səmərəli istifadə edə bilər. Eyni zamanda kənd təsərrüfatı istehsalı ilə məşğul olan müxtəlif subyektlərin inkişafı üçün bərabər şəraitin yaradılması və kənd təsərrüfatına yararlı torpaqların dövrüyyəyə cəlb edilməsi məqsədilə onların güzəştli şərtlərlə vergiyə cəlb edilməsi aqrar sahənin inkişaf etdirilməsi baxımından müsbət nəticələr verə bilər. Belə vergitutma mexanizminin səmərəli fəaliyyəti üçün aşağıdakılara diqqət yetirilməsi vacibdir: kənd təsərrüfatına yararlı torpaq sahələrinin kadastr dəyərindən asılı olaraq vergitutma bazasının formalaşdırılması; meliorasiya tədbirləri və eroziyaya qarşı mübarizə məsələlərinin həlli və torpağın münbitliyinin bərpası; torpaq

sahələrinin dəyərindən asılı olaraq torpağa görə ödənişlərin fərqləndirilmiş məbləğlərinin müəyyən edilməsi; torpaqdan səmərəli istifadə ilə bağlı optimal tənzimlənməni həyata keçirmək üçün zəruri hüquqi-iqtisadi şəraitin yaradılması və s. Vergi sisteminin tənzimləyici rolu kənd təsərrüfatı istehsalının inkişafına, eləcə də innovasiya və investisiya mühitinin aktivləşdirilməsinə yönəlməklə qarşılıqlı maraqları təmin etməyi hədəfləyir.

11. Beynəlxalq təcrübədə qeyri-dövlət pensiya sığortası və kredit kooperasiyası əsasında kənd təsərrüfatının dəstəklənməsi məqsədilə investisiya-maliyyə sisteminin formalaşdırılması təcrübəsindən geniş istifadə edilir. İnvestisiya-maliyyə sisteminin formalaşdırılmasının məqsədi kənd təsərrüfatı istehsalına dəstək vermək, büdcədənkənar mənbələr vasitəsilə kənd yerlərinin inkişafı üçün investisiya proqramlarının və layihələrinin həyata keçirilməsi üçün zəruri həcmdə maliyyə resurslarını cəlb etməkdən ibarətdir. İnvestisiya-maliyyə sistemi investisiya və maliyyə münasibətləri sisteminin tərkib hissəsi kimi fəaliyyət göstərməklə bütövlükdə aqrar iqtisadiyyatının inkişafında innovativ texnologiyaların tətbiqi, kooperasiyaya əsaslanan inteqrasiya olunmuş strukturların formalaşdırılması üçün daxili maliyyə resurslarının səfərbər edilməsi və digər mümkün mənbələrdən maliyyə resursların cəlb edilməsi mexanizmi kimi özünü göstərir. Kənd təsərrüfatına dəstək üçün investisiya-maliyyə sisteminin fəaliyyəti müxtəlif qurumlarla - qarşılıqlı sığorta cəmiyyətləri, qeyri-dövlət pensiya fondları, kredit kooperativləri, qarşılıqlı yardım fondları, banklar və s. qarşılıqlı əlaqəyə əsaslanır. Sığortalıların maliyyə resursları investisiya resurslarına çevrilir. Bundan əlavə, belə mexanizmin tətbiqi sığorta haqları şəklində sığorta şirkətlərinə vəsaitlərin axınını azalda, sığorta təşkilatlarının fəaliyyətinin dövlət tənzimlənməsini sadələşdirə, xarici investorlar və tərəfdaşlarla qarşılıqlı maraqlar əsasında əlaqələrin formalaşdırılmasını və kommersiya və qeyri-kommersiya sığortasının vahid sisteminin yaradılmasını təmin edə bilər.

12. Aqrar sahəyə dövlətin maliyyə yardımlarının həyata keçirilməsi informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə bilavasitə əlaqəlidir. Bu baxımdan hər bir iqtisadi rayon üzrə inteqrasiya olunmuş təsərrüfat subyektlərinin malik olduğu

məlumatlarının tərkibini və həcmini, innovasiyaların tətbiqi imkanlarını və miqyasını, müvafiq olaraq onların dəstəklənməsinin istiqamətlərini və həcmini müəyyən etmək zəruri məsələlərdəndir. Bu cür məlumatlara sərbəst çıxış imkanının formalaşdırılması son dərəcə vacibdir, çünki həmin məlumatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən oxşar şəraitdə innovasiyaların praktiki tətbiqində real nəticələri xarakterizə etməyə imkan yaradır. Ona görə investisiyaların istehsal sahələrinə cəlb edilməsi məqsədilə hər bir təsərrüfat subyekti üzrə istifadəçilərə etibarlı və daha qısa müddətə məlumat verməyə imkan verən informasiya məhsullarından istifadəyə şərait yaradılması vacibdir.

Dissertasiya işinin əsas müddəaları aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:

1. Muradov R.C. Aqrar sahədə subsidiyalaşma maliyyə dəstəyinin tərkib hissəsi kimi /ADAU-nun Elmi Əsərləri, Gəncə, 2022
2. Muradov R.C. Aqrar sahəyə maliyyə dəstəyi mexanizminin prioritetləri // "The 1 ınternational scientific symposium ıntercultural relatıons ın a global world Eskishehir/Turkey, july 10, 2022
3. Muradov R.C. Aqrar sahənin maliyyə potensialının qiymətləndirilməsi // Mingəçevir Dövlət Universiteti // "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar". Mingəçevir. 16-17dekabr, 2022.
4. Muradov R.C. Aqrar sahənin maliyyə resursları ilə təmin olunma səviyyəsinin təhlili / Azərbaycan Texnologiya Universiteti, İnnovasiyalı İqtisadiyyat və Menecment, № 2, Gəncə, 2024
5. Muradov R.C. Kənd təsərrüfati istehsalının kreditləşdirilməsi xüsusiyyətləri /Mingəçevir Dövlət Universiteti, Dayanıqlı inkişaf elmi-jurnal, Mingəçevir, 2024.
6. Muradov R.J. Strengthenıng fınancıal mechanısms for ımprovıng ınvestments ın the agrıcultural sector. XVIII Міжнародної науково-практичної конференції «Проблеми Та Перспективи Розвитку Підприємництва», Харків, 2024
7. Muradov R.C. Aqrar sahənin maliyyə potensialına təsir edən amillər // Mingəçevir Dövlət Universiteti // ""Yeni Dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar" II-ci Beynəlxalq elmi

konfrans, Mingəçevir Dövlət Universiteti, Mingəçevir, 13-14 dekabr 2024.

8. Muradov R.C. The mechanism of application of concessions in the material and technical support of the agrarian field. Eneco, Proceedings Of Energy Economic Research Center, 2024.

9. Muradov R.C. Kənd təsərrüfatı sektoruna investisiyaların təkmilləşdirilməsi üçün maliyyə mexanizmlərinin gücləndirilməsi / Azərbaycan Texnologiya Universiteti, İnnovasiyalı İqtisadiyyat və Menecment, № 1, 2025.

10. Мурадов Р.Дж. Государственная поддержка и стимулирование инвестиционной активности в сфере сельского хозяйства в Азербайджане. Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии, 2025.



Dissertasiyanın müdafiəsi 9 dekabr 2026-cı il tarixdə, saat 14^{00}-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç., 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 7 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.11.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47080 işarə

Tiraj: 100